# Akademik Ziya Bünyadovun 100 illik yubileyi qeyd olunmuşdur

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Ziya Bünyadovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar sərəncam imzalamışdır.**



Bu günlər Astarada ziyalılar, tələbələr, qeyri-hökumət təşkilatlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə görkəmli tarixçi və şərqşünas alimin 100 illik yubileyinə həsr olunmuş ümumrayon tədbiri keçirilmişdir.

Tədbirdə görkəmli alimin şərəfli ömür yolu və fəaliyyəti barədə söhbət açılmış və xüsusi vurğulanmışdır ki, Z.Bünyadov həm qəhrəman, həm də böyük elm fədaisi olmuşdur. O, İkinci Dünya müharibəsindən qayıdandan sonra ali təhsil almış, şərqşünas və tarixçi alim kimi bütün ömrünü müxtəlif ölkələrin arxivlərində Azərbaycan tarixini araşdırmağa həsr etmiş, yazdığı yüzlərlə elmi məqalə, monoqrafiya və kitablarda Azərbaycan haqqında tarixi həqiqətləri üzə çıxarmışdır.

Ziya Bünyadov 1992-ci ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı üçün müraciətə imza atmış 91 nəfər tanınmış ziyalıdan biri idi. O, Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra Ulu Öndərin ən yaxın silahdaşlarından olmuşdur. Ümummilli Lider Ziya Bünyadovun elm və ictimai xadim kimi xidmətlərini yüksək qiymətləndirmişdir. Naxçıvana səfərlərinin birində Heydər Əliyev Möminə xatun türbəsinin qarşısında dayanıb "Ziya təkcə bir alim, qəhrəman yox, həm də ən kəskin məqamlarda belə öz xalqının mənafeyini güdən bir şəxsiyyət, vətəndaşdır", - deyə söyləmişdir.

Akademik Ziya Bünyadovun müharibə illərindəki misilsiz qəhrəmanlığı və elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Sovet İttifaqı Qəhrəmanı olmuş Z.Bünyadov ölümündən sonra "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Ziya Bünyadov Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında fəal iştirak etmiş, 1992-ci ildə YAP sədrinin müavini, 1995-ci ildə Milli Məclisin deputatı seçilmişdir. 1997-ci il fevral ayının 21-də yaşadığı binanın qarşısında cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilən Azərbaycan xalqının qəhrəman oğlu, akademik Ziya Bünyadovun əziz xatirəsi qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaq.

Tədbirdə Ziya Bünyadovun mənalı həyat yolu və fəaliyyətindən bəhs edən film nümayiş etdirilmiş, rayon mədəniyyət mərkəzinin özfəaliyyət kollektivinin üzvləri konsert proqramı ilə çıxış etmişlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 28 dekabr (№285).- S.17.